**Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2012-ci il avqustun 28-də Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 513-IVQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"in yerinə yetirilməsinə yardım etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin: [1]

***Komissiyanın həmsədri*** [2]

*Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini* [3]

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası energetika nazirinin müavini*
*Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini*
*Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini*
*Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini* [4]
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini*
*Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri*
*Azərbaycan Respublikasının Koreya Respublikasında fövqəladə və səlahiyyətli səfiri*
*Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Asiya İdarəsinin rəisi.*

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 avqust 2015-ci il
1346

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
2. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)
3. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)
4. 23 iyul 2021-cı il tarixli **2797** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 24 iyul 2021-ci il, 151 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 810**)
5. 31 may 2022-ci il tarixli **3288** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 iyun 2022-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 5, maddə 529**)
6. 3 mart 2023-cü il tarixli **3782** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 4 mart 2023-cü il, 49**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində "**rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini**" sözləri "**rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**İltimas Məmmədov - Azərbaycan Respublikası rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri "**Elmir Vəlizadə - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri ilə əvəz edilmi.dir/

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Arif Əsgərov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " sözləri çıxarılmışdır.

[2] 23 iyul 2021-cı il tarixli **2797** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Xalq” qəzeti, 24 iyul 2021-ci il, 151 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 810**) ilə 1-ci hissə ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

-

~~**Komissiyanın həmsədri**~~

-

| | | |
|---|---|---|
| ~~*Elmir **Vəlizadə***~~ | – | ~~*Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*~~ |

-

~~**Komissiyanın üzvləri:**~~

-

| | | |
|---|---|---|
| ~~Sahib **Məmmədov**~~ | – | ~~Azərbaycan Respublikası iqtisadiyyat və sənaye nazirinin müavini~~ |
| ~~Natiq **Abbasov**~~ | – | ~~Azərbaycan Respublikası energetika nazirinin müavini~~ |
| ~~Ragim **Lətifov**~~ | – | ~~Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini~~ |
| ~~Seyfəddin **Talıbov**~~ | – | ~~Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Firdovsi **Əliyev**~~ | – | ~~Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini~~ |
| ~~Arif **Əsgərov**~~ | – | ~~Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini~~ |
| ~~Firudin **Qurbanov**~~ | – | ~~Azərbaycan Respublikası təhsil nazirinin müavini~~ |
| ~~Nazim **Səmədov**~~ | – | ~~Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~İbrahim **Quliyev**~~ | – | ~~Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti~~ |
| ~~Rəmzi **Teymurov**~~ | – | ~~Azərbaycan Respublikasının Koreya Respublikasında fövqəladə və səlahiyyətli səfiri~~ |
| ~~Xəzər **Fərhadov**~~ | – | ~~Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Birinci Asiya İdarəsinin rəisi.~~ |

[3] 31 may 2022-ci il tarixli **3288** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Xalq” qəzeti, 3 iyun 2022-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 5, maddə 529**) ilə 1-ci hissədə “**nəqliyyat, rabitə və yüksək texnologiyalar**” sözləri “**rəqəmsal inkişaf və nəqliyyat**” sözləri ilə əvəz edilmişdir.

[4] 3 mart 2023-cü il tarixli **3782** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 3 mart 2023-cü il, “Xalq” qəzeti, 4 mart 2023-cü il, 49**) ilə 1-ci hissədə “**təhsil**” sözü “**elm və təhsil**” sözləri ilə əvəz edilmişdir.